# Ədəbiyyatımızda Qarabağ müharibəsi mövzusu



■ Vahid MƏHƏRRƏMOV
*Mayor*

**Ədəbiyyatı mövzu baxımından yaşıl çəmənzara bənzətmək istərdim. Hər çiçəyin öz forması, öz ətri var. Yazı həvəslisinin seçim etməsi üçün istənilən qədər, istənilən ölçüdə çeşid var. Hər mövzunun öz forması, öz üslubu öz boynuna biçilib. Mövzular öz geyimində daha gözəl görünür. Rəngarənglik təbiətdə də gözəldir, ədəbiyyatda da. Baxdıqca zövq alırsan, oxuduqca könül xoşluğu tapırsan.**

Ədəbiyyat mövzu sarıdan qıtlıq çəkmir. Lakin oxucular əsasən müharibədən bəhs edən əsərlərə daha həssaslıqla yanaşırlar. "Müharibə ədəbiyyatın şah mövzusudur" - desək, yəqin ki, səhv etmərik. Oxucular müharibənin özünü də, bu mövzuya işıq tutan əsərləri də daim maraq dairələrində saxlayırlar. Bu marağın, bu həvəsin işığı heç vaxt azalmır. Görəsən, müharibənin ağrı-acılarından bəhs edən hekayə, povest və romanların maraqla qarşılanmasının sirri, sehri nədədir? Nədən insanların bu mövzuya marağı azalmır? Oxucuları bu mövzuya çəkən nədir, hansı hiss və duyğudur?

Müharibədən bəhs edən filmlərə tamaşa etməkdən doymursan. Onlara təkrar-təkrar, özü də həvəslə baxırsan. Bu filmlərdən qəhrəmanlıq öyrənirsən, hisslərin coşanda bir anlıq özünü onun içində hiss edirsən. Ürəyindən tamaşaçısı olduğun filmin iştirakçısına çevrilmək arzusu keçir. Əsərlər, filmlər səni həyatda qarşılaşacağın çətinliklərlə mübarizəyə alışdırır - mətinləşirsən.

Müharibə sözünü dilə gətirəndə, yaxud qələmə alanda ilk olaraq gözlərimiz qarşısında qanlı döyüşlər canlanır, qulaqlarımızda top-tüfəng səslərinin gurultusu əks-səda verir. Müharibə nədir? Bu suala qısaca cavab verməli olsaq, yəqin ki, "Müharibə qan-qada, ölüm-itim, acı göz yaşları, ah-nalə, insanların talelərini, arzularını yarıda kəsən, doğmaları bir-birinə həmişəlik həsrət qoyan gözəgörünməz bir qüvvə, dağılmış kəndlər, şəhərlər deməkdir" söylərdik. Rəşid Faxralının təbirincə desək, "...müharibə qan-qadadı, ölüm-itimdir, yetimlikdi, əsirlikdi..." ("Müharibə nə vaxt qurtaracaq?", Bakı, 1992). Müharibə gücün, zorun son həddidir, əsəblərin gərildiyi, səbrin tükəndiyi, danışıqların, mübahisələrin uğursuzluqla başa çatdığı son nöqtədir. İnsanların danışan dilləri susandan, sülhə, razılığa gəlməyəndən sonra artıq barmaqlar silahların tətiyini sıxır. Silahlar gurlayır, ataş səsləri bir anda hər tərəfi lərzəyə gətirir. Odlu-alovlu mərmilər yeri-göyü yandırır. Minlərlə günahsız adamın qanı tökülür, evlər uçurulur, şəhərlər, kəndlər dağıdılır, dünya nizamından çıxır, insanlığın və insanların faciəsi başlayır...

Son vaxtlar mətbuat səhifələrində neçə illərdən bəri ağrı-acısını yaşadığımız Qarabağ müharibəsinin ədəbiyyatda öz əksini necə tapması barədə müzakirələr aparılır, yazılan əsərlər təhlil olunur. Bu, çox gözəl, alqışlanmalı bir addımdır. Yaradıcı adamlar bu barədə fikirlərini bölüşür, mülahizələrini söyləyir, rəylərini bildirir, təkliflərini verirlər. Son nəticədə sanki qarşımızda bir-birinə bənzəməyən rəylər, fikirlər mənzərəsi açılır.

Söylənilən fikirlərə rəğmən qeyd edək ki, doğrudan da Qarabağ müharibəsi ədəbiyyatda öz inikasını çox ləng tapır. Müharibənin başlandığı günlərdən bizi xeyli zaman məsafəsi ayırır. Düzdür, ötən vaxt ədəbiyyat üçün boş-boşuna keçməyib, bu istiqamətdə nəzərəçarpacaq işlər görülüb. Qarabağ müharibəsi mövzusunda bir çox bədii və sənədli əsərlər yazılıb, kitablar çap olunub. Bədii və sənədli filmlər də çəkilib. Yeni kitabların yazılması üçün mövzu axtarışları davam edir. Amma sanki hiss olunur ki, bütün bunlar oxucunu qane etmir. Hiss olunur ki, bu yazılmış əsərlərdə müharibə tam dolğunluğu, reallığı ilə əks olunmur. Azərbaycan əsgərinin, Azərbaycan döyüşçüsünün obrazı olduğu kimi görünmür. Elə bil bir az zəiflik, solğunluq nəzərə çarpır. Tamlığa, bütövlüyə ehtiyac duyulur. Bu gün oxucularımız şair və yazıçılardan Qarabağ müharibəsindən, onun gedişindən, torpaqlarımızın nədən və niyə itirilməsindən, həmçinin işğal olunmuş ərazilərimizin hansı yollarla geri qaytarılmasından bəhs edən əsərlər gözləyir.

Müharibə mövzusundan, onun bədii əsərlərə bir az gec ayaq açmasından danışan bəzi qələm adamları Qarabağ müharibəsinin ədəbiyyata mövzu verməməsini də qeyd edirlər. Əlbəttə, bu, bir az mübahisəli, amma düşündürücü və fikir bildirməyə ehtiyacı olan mülahizədir. Təbiidir ki, ətrafımızda baş verən hadisələrə hərənin öz baxış bucağı var. Hər kəs yaşadığımız həyata, dünyaya öz dünyagörüşünün pəncərəsindən boylanır. Digər bir tərəfdən isə fikir müxtəlifliyinin özü də gözəl bir mozaika yaradır. Təbiidir ki, eyni fikirlər üst-üstə düşüb bir-birini təkrarlasaydı, yəqin ki, darıxdırıcı olardı, bu qədər maraq kəsb etməzdi. Bu yerdə mütəfəkkirlərdən birinin hikmətli sözləri yadıma düşdü: "O yerdəki hamının fikri eynidir, orada fikir yoxdur". Heç kimə sirr deyil ki, ən yaxşı ideyalar yeni fikirlərdən doğur. Ona görə də deyilən hər sözə, söylənilən hər fikrə hörmətlə yanaşılmalıdır. Fikir də, ideya da toxum kimidir, onun da cücərib inkişaf etməsi üçün münbit şərait lazımdır.



## Ən mükəmməl əsərləri biz özümüz yazmalıyıq

Yuxarıda söylənən fikrə münasibət bildirərək, qeyd etmək yerinə düşər ki, Qarabağ müharibəsi ədəbiyyata kifayət qədər mövzu verir. Bu amansız müharibə indiyə qədər minlərlə, yüzlərlə adamın ürəyinə dağ çəkib. Bala dağı, ata dağı, bacı dağı, qardaş dağı, torpaq dağı... Müharibənin hər bir günü, hər bir saatı, hər bir anı ədəbiyyata böyük mövzu verə bilər. Döyüşçünün silahlanması, irəli atılması, ataş açması, vuruşması, qalib gəlməsi, yaralanmış əsgər dostunu xilas etmək üçün hospitala aparması, düşməni öldürməsi, uğurlara sevinməsi, torpağı azad etməsi... Bunlar ayrı-ayrılıqda hərəsi bir əsərə mövzudur. Bir şərtlə ki, müharibə mövzusunda yazan müəllif bu döyüşləri, hadisələri yaxından izləsin, yetərincə müşahidələr aparsın. Əks-təqdirdə onun yazdığı əsər bayağı görünəcək, reallığı, həqiqəti əks etdirməyəcək. Bünövrəsiz divar kimi tez uçub dağılacaq. Oxucular tərəfindən yaxşı qarşılanmayacaq, onların mənəvi ehtiyacını ödəməyəcək. Belə kitabların rəflərdə yaşamaq ömrü elə də uzun çəkməyəcək.

Vaxt, zaman keçdikcə düşünürsən ki, Qarabağ müharibəsini ədəbiyyata mükəmməl şəkildə gətirmək kimi məsuliyyətli bir missiya kimin üzərinə düşəcək? O insan kim olacaq? Bu missiyanı nə vaxt yerinə yetirəcək? Belə ağrı-acılı mövzuya necə çiyin verəcək? Müharibə mövzusundan söz açan bəzi yazıçılar hər şeyin zamana ehtiyacının olduğunu bildirirlər. Qeyd edirlər ki, müharibə haqqında ən yaxşı əsərlər döyüşlər başa çatandan illər sonra yaranır. Bu fikrə hörmətlə yanaşıb razılaşmaq olar. Amma hər şeyi də zamanın boynuna atıb, əllərimizi üst-üstə qoyub oturmaq da düzgün deyil. Unutmayaq ki, bu işi bizim əvəzimizdən heç kim görməyəcək. Hansısa bir formada bu vacib sahəyə təkan verməliyik, müharibə mövzusunu ədəbiyyatda yetərincə, mükəmməl şəkildə işıqlandırmaq üçün gərəkli işlər görməliyik. Ən azı bunun yollarını arayıb-axtarıb tapmalıyıq, daim araşdırma aparmalıyıq. Görəcəyimiz işlərin istiqamətini müəyyənləşdirməliyik.

Bu sətirləri yaza-yaza, yerinə düşdüyündən, cəbhə bölgəsinə olan ezamiyyətlərimin birində Tağı adlı zabitlə olan söhbətimi xatırladım. Görüşümüz zamanı zabit ermənilərin torpaqlarımızı işğal etməsindən, yurd yerlərimizin hələ də düşmən tapdağı altında qalmasından, atəşkəs rejiminin davam etməsindən ürək ağrısı ilə danışdı. Söhbət əsnasında dedi ki, mən Qarabağ müharibəsini dayandırmış atəşkəs rejiminin ləğv olunmasının tərəfdarıyam. İstəyirəm ki, torpaqlarımızın azadlığı uğrunda müharibə lap günü sabah başlasın. "Niyə"sini soruşanda dedi:

-Təqaüd yaşım çatır. Bir ilə, iki ilə ordu sıralarından tərxis olunacam, istəmirəm ki, müharibə məndən övladlarıma keçsin. Tərxis olunandan sonra evə qələbəsiz dönəndə övladlarımın üzünə necə baxacam? Qarabağı düşmən tapdağında qoyub geri necə dönəcəm? Yaxınlarıma, doğmalarıma nə deyəcəm? Ona görə də istəyirəm ki, müharibə başlasın, döyüşək, vuruşaq, düşmənləri öldürüb torpaqlarımızı azad edək. Ondan sonra övladlarımın yanına alnıaçıq, başıuca qayıdaram.

Bu mövqedən yanaşsaq, Qarabağ müharibəsi haqqında ən mükəmməl əsərləri biz özümüz yazmalıyıq. Müharibə kimi onu da övladlarımızın çiyninə atmayaq, bu məsuliyyəti vəzifəni onlara saxlamayaq. Çünki zaman keçdikcə hər şey unudulur, hadisələrin istiliyi öləziyir, hərarəti azalır. Ona görə də müharibə haqqında ən yaxşı əsərlər yazmaq bugünkü nəslin üzərinə düşür. Belə olarsa, ədəbiyyatın da üzü gülər, ürəyi açılar, könlü xoşlanar. Böyüməkdə olan nəsillər də bu əsərlərdən bəhrələnər, tariximizi öyrənər.

Müharibə mövzusunda yazmaq üçün elə bir hazır düstur yoxdur ki, onu tətbiq edib əsər yazasan. Bu, hər kəsin mövzuya fərdi yanaşmasından, hadisələri işıqlandırmaq qabiliyyətindən asılıdır. Bu mövzunun sifarişlə, xahişlə yazılması da mümkün deyil. Gərək müharibə mövzusu yazıçının ürəyindən gəlsin, qəlbini hərarətləndirsin, içini tərpətsin. Həm də müharibə mövzusunda əsər yazmaq fikrinə düşən qələm adamı işə başlamazdan əvvəl bu sahəni yaxşı-yaxşı öyrənsə, uğur qazanar. Əks-təqdirdə yazacağı əsəri sona çatdıra bilməz, yolun yarısında ilişib qalar.

Bu məqamda görkəmli ingilis şərqşünası Uilyam Consun fikrini xatırladım: "Şərq xalqlarından yalnız Şərqdə olan, Şərq xalqlarının milli xüsusiyyətlərini, ayrı-ayrı xalqların dilini bilən adam yazmalıdır". Bu fikri Qarabağ müharibəsindən yazmaq istəyən müəlliflərə də yönləndirib belə demək olar ki, bu mövzuda yazmaq istəyən müəlliflər hərb həyatını, döyüş sənətini az-çox öyrənsələr, qələmlərindən çıxan əsərlər reallığı əks etdirər.

Müharibə mövzusunu ədəbiyyata gətirmək, gənc nəsildə maraq oyatmaq üçün bəzi vacib addımlar atılsa, bu, yalnız işin xeyrinə olardı. Təklif kimi deyim ki, müharibə mövzusunda yaradıcılıq müsabiqələrinin keçirilməsi zəruridir. Başqa müxtəlif mövzularda müsabiqələr keçirilsə də, nədənsə ədəbiyyatda müharibə mövzusu unudulur. Halbuki belə bir müsabiqə keçirilsə, gənc yazarlar burada fəal iştirak edər, nəzərlər Qarabağa dikilər. Araşdırmalar aparılar, sənədlər vərəqlənər, sonda ortalığa yaxşı əsərlər çıxar.

Bundan başqa, yaradıcı adamlarla müharibə iştirakçılarının görüşləri təşkil olunsa, böyük maraq kəsb edən və qələmə yatan döyüş səhnələri ortaya çıxardı. Bu ideyalar həyata keçirilsə, yazarlar üçün yeni qapılar açılar, yeni yollar salınardı. Qarabağ müharibəsi mövzusunda yeni əsərlər yazılar, yeni kitablar çap olunardı. Müharibə mövzusunda olan boşluqlar dolardı. Və nəticədə ədəbiyyat qazanardı...